

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 116 (24.253)

*4 iyul 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik

## Naxçıvanda fərdi rəsm sərgisi açılıb













Naxçıvan Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda rəssam Mənsur Əsgərlinin Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “İşığa doğru” adlı fərdi yaradıcılıq sərgisi açılıb.

Sərginin açılışında Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Əməkdar rəssam Ülviyyə Həmzəyeva çıxış edib, Ümummilli Lider Heydər Əliyevin mədəniyyət və incəsənətimizə, yaradıcı insanlara göstərdiyi diqqət və qayğıdan danışıblar.

Qeyd olunub ki, rəssam Mənsur Əsgərlinin müxtəlif koloritli əsərləri rəngarəngliyinə görə ruh oxşayır, doğma el-obaya bağlılığı əks etdirir. Müxtəlif janrlarda çəkilmiş əsərlərdə optimizm ruhu, Vətən müharibəsindəki Zəfərimizin təsviri diqqəti cəlb edir.

Çıxış edənlər rəssama yaradıcılıq uğurları arzulayıb, ona səmimi təbriklərini çatdırıblar.

Sonra rəssama Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinə üzvlük vəsiqəsi təqdim olunub.

Rəssam Mənsur Əsgərli fərdi sərgisinin təşkilinə görə minnətdarlıq edib.

Sonra sərgiyə baxış olub.

Rəssamın portret, mənzərə, qrafika və digər janrlarda işlədiyi əsərləri tamaşaçılar tərəfindən maraqla qarşılanıb.

Qeyd edək ki, sərgi iyulun 5-dək davam edəcək.

## Şərur rayonunun Çərçiboğan kəndində şəhidlər bulaq-abidə kompleksi istifadəyə verilib





*Ardı 2-ci səhifədə*






Şərur rayonunun Çərçiboğan kəndində 1-ci və 2-ci Qarabağ müharibəsi şəhidləri – Novruzov Elvin Ziyafət oğlu, Abbasov Ramiq




İlyas oğlu, Məmmədov Faiq Yaqub oğlu, Novruzov Cavid Ələsgər oğlu, Süleymanov Əlləddin Eldar oğlu, Novruzlu Pərviz Qorxmaz oğlu və Cabbarov Seymur İlham oğlunun xatirəsinə ucaldılmış bulaq-abidə istifadəyə verilib.

Açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, qazilər, şəhid ailələri üzvləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak edib.

Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himnimiz səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Qurban bayramı münasibətilə tədbir iştirakçılarını təbrik edib, Azərbaycan Ordusunun rəşadətindən bəhs edib. Bildirib ki, ölkəmizdə müasir ordu quruculuğunun əsası Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Uzaqgörən siyasətçi, fenomenal şəxsiyyətin uğurlu missiyası bu gün Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, 44 günlük Vətən müharibəsində rəşadətli Ordumuz düşmən üzərində parlaq qələbə qazandı, tarixi torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz təmin olundu.

Səlahiyyətli nümayəndə istər Birinci, istərsə də İkinci Qarabağ müharibələrində Şərurun qəhrəman övladlarının böyük rəşadət göstərdiyini, torpaqlarımızın ərazi bütövlüyünün təmin olunmasında öndə gedən vətənpərvər oğullardan olduqlarını vurğulayıb. Qeyd edib ki, dövlətimiz tərəfindən şəhid ailələrinə xüsusi diqqət və qayğı göstərilir, onların sosial müdafiəsi gücləndirilir, şəhidlərimizin xatirəsi daim əziz tutulur. İstifadəyə verilən şəhid bulaq-abidə kompleksləri də bu diqqətin mühüm ifadəsidir.

Şəhid valideynləri adından çıxış edən İlham Cabbarov Müzəffər Ali Baş Komandanın rəhbərliyi və şanlı Ordumuzun qüdrəti ilə 44 günlük Vətən müharibəsində qazandığımız parlaq qələbədən fəxarətlə bəhs edib, şəhid atası olmaqdan qürur duyduğunu bildirib.

Tədbirdə digər çıxış edənlər bildirib ki, xalqımız qəhrəmanlarını unutmur, onları qəlbində, yaddaşında yaşadır, əziz xatirələrini daim yad edir, gələcək nəsillərə ötürür.

Sonra şəhidlər bulaq-abidə kompleksinin açılışı olub.

Tədbirdə məktəblilər Vətənə və şəhidlərimizə həsr olunmuş şeirlər səsləndiriblər.

Sonda tədbir iştirakçıları üçün ehsan süfrəsi açılıb, şəhidlərimizin ruhuna dualar oxunub.

## Naxçıvan Orta İxtisas Polis Məktəbində buraxılış mərasimi keçirilib

İyunun 30-da Azərbaycan polisinin yaranmasının 105 illiyi və Ümummilli Lider Heydər Əliyevin 100 illiyi münasibətilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində təntənəli buraxılış mərasimi keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri Süleyman Neymətov və daxili işlər orqanlarının əməkdaşları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərində əzəmətlə ucalan abidəsini ziyarət edib, Ulu Öndərin xatirəsinə ehtiramlarını bildiriblər.



Sonra tədbir Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin buraxılış mərasimi ilə davam etdirilib.





Səlahiyyətli nümayəndə kursantları salamlayıb, onları Azərbaycan Polisi Günü və məktəbi bitirmələri münasibətilə təbrik edib.

Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək bildirib ki, daxili sabitliyin və ictimai təhlükəsizliyin qarantı olan daxili işlər orqanları ötən 105 ildə çətin və şərəfli yol keçib.

“Ümummilli Lider Heydər Əliyev daxili işlər orqanlarının səmərəli fəaliyyətini, maddi-texniki bazasının möhkəmləndirilməsini, şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsini hər zaman diqqətdə saxlayıb. Ulu Öndərimizin siyasi və quruculuq yolunu uğurla davam etdirən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan polisi Vətən müharibəsindəki zəfərimizə öz imzasını atdı, böyük şücaət və qəhrəmanlıqlar göstərdi, şəhidlər verdi”, – deyə Fuad Nəcəfli vurğulayıb.

Səlahiyyətli nümayəndə sürətlə inkişaf





*Ardı 3-cü səhifədə*














edən və güclənən Azərbaycanda polisin qarşısında bundan sonra daha mühüm vəzifələrin durduğunu bildirib, polis əməkdaşlarına daxili sabitliyin və ictimai təhlükəsizliyin qorunması naminə şərəfli fəaliyyətlərində uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri Süleyman Neymətov bildirib ki, Azərbaycanda daxili işlər orqanları Prezident cənab İlham Əliyevin yüksək qayğısı ilə əhatə olunub. Hər bir Azərbaycan polisi bu qayğıya cavab olaraq qürurla xidmət edir, daxili sabitliyin keşiyində şərəflə dayanır, cinayətkarlığa qarşı qətiyyətlə mübarizə aparır.

Süleyman Neymətov məktəbi bitirən gənc zabitləri polis orqanları sıralarında fəaliyyətə başlamaları münasibətilə təbrik edib, onlara yüksək təhsil və tərbiyə vermiş müəllimlərə və valideynlərə təşəkkürlərini çatdırıb.

Məzunlardan polis kiçik leytenantı Sərxan Eyvazov yaradılmış şəraitə görə minnətdarlığını bildirib.

Sonra məzunlara diplomlar təqdim olunub.

Məktəbi fərqlənmə diplomu ilə bitirən polis kiçik leytenantı Uğur Səlimzadə yaş kötüyünə rəmzi xatirə lövhəsini vurub.

Şəxsi heyət “Azərbaycan polisi” marşını səsləndirib, mətin addımlarla tribunanın qarşısından keçib.

Məktəbi bitirən kursantlarla xatirə fotosu çəkdirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbirdə iştirak edən valideynlərlə və məktəbin pedaqoji kollektivi ilə görüşüb, onlara təbriklərini çatdırıb, təşəkkür edib.

Tədbirdə iştirak edən qazi və şəhid ailələri üzvlərinə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi və Azərbaycan Polis Gününə həsr olunmuş xatirə plaketləri təqdim edilib.

**“Şərq qapısı”**

## Muxtar respublikanın səhiyyə sahəsində bir ilk:
## *Gənclər səhiyyə sahəsində könüllü fəaliyyətə cəlb edilib*



Bu münasibətlə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov çıxış edərək bildirib ki, könüllü fəaliyyətə cəlb olunmuş tələbələrin biliklərinin nəzəri və praktiki inkişafına dəstək göstərilməklə yanaşı, onlar fəaliyyətinə dair sertifikatlarla təmin ediləcək, aktivliyi ilə seçilən səhiyyə könüllüləri qanunvericiliyə uyğun işlə təmin olunması diqqətdə saxlanılacaq.

Səhiyyə könüllüləri könüllü təşəbbüsləri üzə çıxarmaq, onları dəstəkləmək, könüllülər qrupu formalaşdırmaq və birgə layihələr icra etmək üçün daha da inkişaf etdiriləcəkdir. İlk olaraq könüllülər xəstəxanalarımıza müraciət edən vətəndaşlara, eləcə də tibbi heyətə yardımçı işlərdə köməklik edəcəklər.

Tədbirdə “Gənclərin səhiyyə sahəsində sosial layihələrə cəlbi” mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov bildirib ki, ölkəmizdə könüllü fəaliyyətinin təşkilini və həyata keçirilməsini təmin edən bir sıra dövlət orqanları, qeyri-hökumət təşkilatları, yerli özünüidarə orqanları var. Könüllülük cəmiyyətimiz üçün çox faydalıdır. Azərbaycan gəncləri bu gün bir sıra qurumlarda, QHT-lərdə könüllü olaraq öz fəaliyyətini davam etdirirlər və bir sıra sahələr üzrə təcrübə qazanırlar. Ölkə başçısının 2020-ci ili Azərbaycanda “Könüllülər ili” elan etməsi könüllü olan şəxslərin fəaliyyətinə verilən ən yüksək qiymət oldu. Bütün bunlar onu göstərir ki, könüllülük dövlətimizin həyata keçirdiyi gənclər siyasətinin mühüm elementlərindən biridir. Bu gün reallaşan və muxtar respublika səhiyyəsində bir ilk olacaq səhiyyə könüllüləri layihəsinin əsasında cəmiyyətin hansısa probleminin həllinə dəstək vermək məqsədi dayanır.

Naxçıvan Muxtar Respublika Xəstəxanası baş həkiminin müavini Ramazan Abbasov “Tibb təhsili və könüllülük” mövzusunda çıxış edərək könüllülərin əhalinin sağlamlığı, cəmiyyətin rifahı naminə ölkəmizdə həyata keçirilən tədbirlərə töhfə vermək istəklərini yüksək qiymətləndirdiyini bildirib.

Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova çıxışında qeyd edib ki, məqsəd səhiyyə üçün yüksəkixtisaslı, peşəkar, insanların sağlamlığının keşiyində layiqincə dayanan kadrlar hazırlamaqdır.

Könüllülük prinsipləri və bu sahədə gənclərin rolundan danışan layihə tərtibatçısı Babaəmir Hacıyev və səhiyyə könüllüsü Dünya Rəcəbli vurğulayıblar ki, könüllülük işi çox nəcib işdir və burada təcrübə əldə etmək üçün də yaxşı imkanlar var və biz gənclər bu imkanlardan lazımınca istifadə edəcəyik.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Ali Məclisin deputatı Strazburqda Avropa Şurası Konqresinin Cari Məsələlər Komitəsinin iclasında iştirak edib



Avropa Şurasının Yerli və Regional Hakimiyyətləri Konqresinin Azərbaycan nümayəndə heyətinin üzvü, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Cəlilzadə konqresin Cari Məsələlər Komitəsinin 28 iyun tarixli iclasında iştirak edib. O, “Böyük böhranlara yerli və regional cavablar: fövqəladə vəziyyətlərdə müdaxilələr və böhran sonrası yenidənqurma” mövzusu üzrə gedən müzakirələrdə çıxış edib. Aidə Cəlilzadə çıxışında dünyada baş verən böhranlara, o cümlədən ölkəmizin 30 ilə yaxın məruz qaldığı ekoloji böhrana toxunub. Azərbaycan nümayəndə heyətinin üzvü Ermənistanın Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd olan Arazdəyən kəndində illik istehsal gücü 180 min ton olan iri metallurgiya zavodu tikilməsini komitənin diqqətinə çatdırıb və bildirib ki, bu zavodun tikintisi beynəlxalq qanunlara ziddir. Espo Konvensiyasına əsasən iştirakçı tərəfin öz ərazisində planlaşdırdığı iri iqtisadi fəaliyyət digər ölkələrin ərazisinə mənfi ekoloji təsir göstərirsə, bu fəaliyyət həmin ölkənin müvafiq qurumları ilə razılaşdırılmalı və ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında sənəd hazırlanmalıdır. Əlavə olaraq Aidə Cəlilzadə Azərbaycanın Espo Konvensiyası çərçivəsində Metsamor Atom Elektrik Stansiyasının ərazisində yeni nüvə reaktorunun tikintisi planları ilə bağlı iddia qaldırmasını və Ermənistanın Konvensiyanın müddəalarına əməl etməməsi barədə qərarın qəbul edilməsini komitə üzvlərinin diqqətinə çatdırıb. O, sonda beynəlxalq ictimaiyyətə müraciət ünvanlayaraq, bu cür qanunsuz, beynəlxalq hüquq və normalara zidd məsələləri qınamağa və lazımi tədbirlər görməyə çağırıb.

İclasda “Gənclər və gənclər siyasəti ilə bağlı mövcud problemlər” mövzusunda hesabat dinlənilib. Azərbaycan nümayəndə heyətinin üzvü Aidə Cəlilzadə Azərbaycanda dövlət gənclər siyasətinin diqqət mərkəzində olduğunu vurğulayıb, ölkə Prezidentinin müvafiq Sərəncamla təsdiq etdiyi “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər Dövlət Proqramı”nda gənclərin təhsil, mənzil problemləri, işlə təminatı, gənclər üçün yeni mərkəzin açılmasının prioritet məsələlər olduğunu diqqətə çatdırıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası "Ağız-Diş Sağlamlığı Mərkəzi" və "Təcili Tibbi Yardım Xidməti" publik hüquqi şəxsləri yaradılıb

*Muxtar respublikada bütün sahələr kimi, səhiyyənin də inkişafına xüsusi diqqət və qayğı göstərilir, bu sahədə mühüm addımlar atılır. Son aylarda həyata keçirilən məqsədyönlü tədbirlərin davamı kimi, "Ağız-Diş Sağlamlığı Mərkəzi" publik hüquqi şəxsi və "Təcili Tibbi Yardım Xidməti" publik hüquqi şəxsi yaradılıb, bu münasibətlə dünən Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində tədbir keçirilib.*



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazir vəzifələrini müvəqqəti icra edən Samiq Sadıxov bildirib ki, bu gün qarşıda duran əsas vəzifələrdən biri məhz əhalinin sağlamlığının qorunmasının təmin edilməsi, səhiyyənin yüksələn tempdə inkişafıdır. Səhiyyənin bütün sahələrində olduğu kimi, təcili və təxirəsalınmaz tibbi yardım işinin təşkili, idarə edilməsi, onun maddi-texniki bazasının təkmilləşdirilməsi də dövlətimizin əsas prioritet məsələlərindən biridir.

Vurğulanıb ki, Naxçıvanda səhiyyə sahəsində aparılan islahatların davamı olaraq əhaliyə göstərilən tibbi xidmətin müasir səviyyədə qurulması istiqamətində davamlı tədbirlər görülməkdədir. Bildirilib ki, təcili və təxirəsalınmaz tibbi yardım xidməti göstərməli olan səhiyyə müəssisələrinin tibbi cihaz və avadanlıqlarla tam təmin olunmaması, heç bir səhiyyə müəssisəsində "Triaj" sisteminin tətbiq edilməməsi, dərman vasitələri ilə lazımi şəkildə təmin olunmamaq, həmçinin ixtisaslı kadr çatışmazlığı təcili tibbi yardım xidmətinin təşkil edilməsindəki ciddi nöqsanlardan xəbər verir. Məhz bunun üçündür ki, muxtar respublikada təcili və təxirəsalınmaz tibbi xidmətin müasir tibbi tələblər əsasında və mərkəzləşdirilmiş qaydada həyata keçirilməsi məqsədilə "Naxçıvan Muxtar Respublikası Təcili Tibbi Yardım Xidməti" publik hüquqi şəxsi yaradılmışdır. Yeni mərkəzin ərazisində 50 çarpayılıq təcili tibbi yardım üzrə xidmət göstərəcək yeni korpusun tikilməsi nəzərdə tutulur.

Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası əhalisinə ağız və diş sağlamlığı xidməti Naxçıvan Muxtar Respublikası "Stomatoloji Mərkəzi" publik hüquqi şəxsi və özəl stomatoloji kabinələr tərəfindən göstərilməkdədir. Lakin əhaliyə göstərilən stomatoloji xidmətlər müasir tələblər səviyyəsində deyil. Belə ki, bu sahədə bəzi qeyri-peşəkarların fəaliyyət göstərməsi, gecə vaxtlarında növbətçi stomatoloqların olmaması əhalinin stomatoloji xidmətlərdən lazımi səviyyədə yararlanmamasına səbəb olur.

Bildirilib ki, məhz bu səbəbdən muxtar respublika əhalisinə ağız və diş sağlamlığı xidmətinin müasir tibbi tələblər əsasında qurulması üçün Naxçıvan Muxtar Respublikası "Stomatoloji Mərkəzi" publik hüquqi şəxsin və "Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası" publik hüquqi şəxsin Stomatoloji şöbəsinin bazası əsasında "Naxçıvan Muxtar Respublikası Ağız və Diş Sağlamlığı Mərkəzi" publik hüquqi şəxsi yaradılmışdır.

Tədbirdə çıxış edən "Naxçıvan Muxtar Respublikası Təcili Tibbi Yardım Xidməti" publik hüquqi şəxsin baş həkimi Vüsal Əliyev həkiməqədər və xəstəxanayaqədərki ilkin tibbi müdaxilənin çox önəmli olduğunu bildirib. Qeyd edilib ki, təcili və təxirəsalınmaz tibbi yardım işi ilk olaraq mərkəzə daxil olan zənglərin, müraciətlərin operativ, çevik şəkildə cavablandırılıb istiqamətləndirilməsindən başlayır. Bəzən şəhərətrafı yaşayış ərazilərindən *103*-ə edilən zənglər texniki səbəblər üzündən şəhərə yönləndirilir ki, bu da vaxt itkisinə, tibbi müdaxilənin və ya təxliyənin gecikməsinə, nəticədə, insan həyatının xilas edilə bilməməsi hallarına səbəb olur. Yeni tətbiq ediləcək vahid mərkəzdən idarə olunan operativ koordinasiya mərkəzi bu problemin aradan qaldırılmasına xidmət edəcək və çağırış verilən əraziyə daha yaxın yerləşən stansiya və yarımstansiyadakı briqada yönləndirilməklə vaxt itkisi minimuma endiriləcək.

Həmçinin vurğulanıb ki, bir sıra ambulans istismar müddətini başa vurduğundan çağırışların icra olunmasında texniki problemlər meydana gəlirdi. Son illərdə Prezident cənab İlham Əliyevin qayğısı ilə alınan yeni təcili yardım maşınlarının müəssisələrə verilməsi bu problemin də həll olunmasına xidmət etmişdir. Eyni zamanda ambulansların müasir texniki və tibbi avadanlıqlarla təmin olunması da daim diqqət mərkəzində saxlanılır.

"Naxçıvan Muxtar Respublikası Stomatoloji Mərkəzi" publik hüquqi şəxsin baş həkimi, stomatoloq Azər Həsənov bildirib ki, muxtar respublikamızda stomatologiyanın inkişafına mane olan ciddi nöqsanları aradan qaldırmaq və müasir stomatologiyanın inkişafına nail olmaq üçün bir çox məsələlərin həllinə start verilmişdir. Belə ki, artıq kadr siyasətinin gücləndirilməsi və kadrların təcrübəsini artırmaq məqsədilə Naxçıvan Dövlət Universiteti və Naxçıvan Tibb Kollecinin birgə təşkilatçılığı ilə stomatologiyaya aid baza hissəsi gücləndirilməkdə, elmi-praktiki konfranslar keçirilməkdədir. Qeyd edilib ki, "Ağız-Diş Sağlamlığı Mərkəzi" publik hüquqi şəxsin yaradılması ilə Naxçıvan Muxtar Respublikasında ilk olaraq Uşaq stomatologiyası şöbəsi yaradılacaq və yeni kadr potensialını hazırlamaq üçün Bakı şəhərindən professor və müəllim heyəti mərkəzə dəvət olunacaq və mərkəzin kadrlarının bilik və bacarıqlarını artırmaq üçün Türkiyə Respublikasının "Ağız-Diş Sağlamlığı Mərkəzi"nə təcrübə keçməyə göndəriləcək ki, bununla da, muxtar respublikada stomatoloji xidmətlər yeni inkişaf mərhələsinə qədəm qoyacaqdır.

Ümumiyyətlə, istər təcili və təxirəsalınmaz tibbi yardım xidmətinin, istər də ağız və diş sağlamlığı xidmətinin yenidən təşkil olunması və dünya standartlarına çatdırılması üçün atılan hər bir addım, görülən hər bir iş əhalinin sağlamlığının qorunmasını məqsədi daşıyır.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Gənclər hərbi xidmətə yola salınıb



*Şərur, Kəngərli və Şahbuz rayonlarında çağırışçıların hərbi xidmətə yola salınması münasibətilə tədbirlər keçirilib.*

Tədbirlərdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edənlər gəncləri hərbi xidmətə yola salınmaları münasibətilə təbrik edib, döyüş qabiliyyəti, vətənpərvərlik ruhu çox yüksək olan Azərbaycan əsgərinin Qarabağda zəfər çaldığını, əzəli torpaqlarımızı işğaldan azad etdiyini fəxarətlə dilə gətiriblər. Çıxışlarda Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə ordu quruculuğu prosesində qazanılan



uğurlardan danışılıb, hərbi xidmətə yola salınan gənclərin Silahlı Qüvvələrimizin qorxmaz və cəsur əsgərləri olacaqlarına inam ifadə edilib.

Qeyd edək ki, çağırışçıların müddətli həqiqi hərbi xidmətə yola salınması iyulun 30-dək davam edəcək.

**Xəbərlər şöbəsi**

## Culfalı taxılçılar razılıq edirlər

Taxılçılıq muxtar respublikada inkişaf etdirilən mühüm kənd təsərrüfatı sahələrindəndir. Culfa rayonunda da bu sahənin inkişafı diqqət mərkəzində saxlanılır. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, cari ilin məhsulu üçün 2022-ci ilin payızında 2084,25 hektar sahədə taxıl əkilib. Onun 1184,35 hektarını buğda, 899,9 hektarını isə arpa təşkil edir. Hazırda sahələrdə taxıl biçini davam edir. Belə ki, bu günədək 1015 hektardan çox sahədə biçin aparılıb. Biçilən sahələrdən 1535 ton məhsul əldə edilib, bunun 975 tonunu buğda, 560 tonunu isə arpa təşkil edir. Artıq rayonun Yaycı, Dizə, Gülüstan kəndlərində biçin işlərinə yekun vurulub. Kırna, Qızılca, Camaldın, Saltaq, Bənəniyar, Gal kəndlərində isə yekunlaşmaq üzrədir. Biçinə isə, ümumilikdə, 19



kombayn cəlb olunub ki, bunlardan 17-si fiziki şəxslərə, 2-si isə Aqrolizinq Açıq Səhmdar Cəmiyyətinə məxsusdur.

Builki məhsuldan razılıq edən təsərrüfatçılarımız ötən illə müqayisədə əkin-biçin işlərinin uğurla həyata keçirildiyindən bəhs etdilər. Yaycı kəndindən olan təsərrüfatçı ***Adil İbrahimov*** bildirdi ki, ötən il 2,3 hektar sahədə əkin aparmışdı, bu il isə mövcud imkanlardan yararlanaraq əkin sahəsini 11 hektara çatdırıb. Yaycı kəndindən olan digər torpaq mülkiyyətçisi ***Məhəmmədəli Abbasov*** isə ötən il 8,5 hektar, bu il isə 10,6 hektar ərazidə taxıl yetişdirdiyini bildirdi.

Təsərrüfatçılar taxıl biçinində heç bir çətinliklə qarşılaşmadıqlarını, biçini vaxtında başa çatdıracaqlarını dedilər. Bunu da qeyd edək ki, tədarük olunan taxıl məhsulları Naxçıvan şəhərindəki taxıl məntəqələrində dəyəri nağd şəkildə ödənilməklə qəbul edilir. Buradan isə o nəticəyə gəlmək mümkündür ki, taxılçılar tezliklə çəkdikləri zəhmətin bəhrəsini görəcəklər.

**✍ Aidə İBRAHİMOVA**

## Naxçıvanda saxlanmasında pozuntular aşkarlanan dərmanların dövriyyəyə buraxılmasının qarşısı alınıb

*İran İslam Respublikasından tranzit keçməklə Bakıdan Naxçıvana qarışıq yük gətirən iki yük nəqliyyat vasitəsinə Naxçıvan Baş Gömrük İdarəsinin "Naxçıvan Karqo Terminal" gömrük postunda gömrük baxışı həyata keçirilib.*



Naxçıvan Baş Gömrük İdarəsindən verilən məlumata görə, bu zaman nəqliyyat vasitələrində olan dərman vasitələrinin və tibbi preparatların daşınma tələblərinə riayət olunmadığı müəyyən edilib. Belə ki, həmin nəqliyyat vasitələrinin bu növ malların daşınması üçün tələb olunan konstruktiv quruluşa malik olmaması və dərman vasitələrinin üzərində qeyd edilən saxlanma şəraiti üçün temperatur normalarının pozulması səbəbindən hər iki fakt üzrə, ümumilikdə, 27 adda – 1564 qutu, 4718 ədəd, 1020 flakon, 2850 tablet, 7720 ampul dərman vasitəsinin dövriyyəyə buraxılmasının qarşısı alınıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşları qeyd olunan dərman vasitələrinə baxış keçirib və daşınma tələblərinin pozulması səbəbindən saxlanılmış həmin dərman vasitələri nazirliyə təhvil verilib.

Xatırladaq ki, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun 12.1-ci bəndinə əsasən dərman vasitələrinin saxlanması və daşınması Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən müəyyən olunmuş qaydada temperatur, işıq rejimləri, rütubət və başqa tələblərə ciddi riayət etməklə həyata keçirilməlidir.

***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi***

## Əsgərlərə sovqat verilib



26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü münasibətilə N hərbi hissədə hərbçilərlə görüş keçirilib. Görüşdə milli ordunun formalaşmasında Ümummilli Lider Heydər Əliyevin xidmətlərindən danışılıb. Qeyd edilib ki, Ulu Öndər siyasətinin uğurlu davamı kimi bu gün Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında öz yerini alır. Ölkə başçısının müdrik siyasəti, xalq-ordu birliyi, ordumuzun gücü, qüdrəti hesabına uzun illər işğal altında qalan torpaqlarımız azad edilib. Bu gün həmin torpaqlarda üçrəngli Azərbaycan Bayrağı qürurla dalğalanır.

Ordubad Rayon İcra Hakimiyyəti tərəfindən rayonun meyvə bağlarından tədarük olunmuş ərik, alma, gilənar, gilas, almaxara, həmçinin kartof və tərəvəzdən ibarət, ümumi çəkisi 1055 kiloqram olan meyvə və tərəvəz çeşidləri Ordubad rayonu ərazisində yerləşən N hərbi hissəyə təhvil verilib.

**Xəbərlər şöbəsi**

## Ümumrespublika yarışının qalibi müəyyənləşib

25 iyun-2 iyul 2023-cü il tarixlərdə Qəbələ şəhərində "Heydər Əliyev İli"nə həsr olunmuş 10-cu ümumrespublika "Gənc xilasedici və yanğınsöndürən" yarışı keçirilib.

Yarışın final mərhələsində Naxçıvan Muxtar Respublikasından iki komanda, Culfa şəhər 3 nömrəli və Ordubad rayon Sabirkənd tam orta məktəblərinin komandaları iştirak edib.

Builki yarışa respublikanın müxtəlif bölgələrindən olan şəhid övladları da dəvət olunub.

16 komandanın iştirakı ilə gərgin mübarizə şəraitində keçirilən yarışın yekun nəticələrinə əsasən Ordubad rayon Sabirkənd tam orta məktəbinin komandası I, Bakı şəhər 31 nömrəli tam orta məktəbin komandası II, şəhid övladlarından ibarət "Gənc Mübarizlər" komandası isə III yerə layiq görülüb.



Qalib komandalar təşkilatçılar tərəfindən kubok, diplom, Fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Qeyd edək ki, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil, Gənclər və İdman nazirliklərinin dəstəyi ilə keçirilib.

**✍ Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, Çənlibel məhəlləsi, bina 5, ev 17-də yaşayan Hacıyeva Aygün Yusif qızının adına olan 13/420 nömrəli qeydiyyat vəsiqəsi və 9366 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Siyaqut kənd sakini Hüseynəliyeva Məhbubə Talıb qızının adına olan JN-324 inventar nömrəli, 10213018 kodlu dövlət aktı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 403